# ZƏFƏRİN OĞLU

## *Şuşa fatehi, şəhid baş çavuş Səid Zəfər oğlu Cəfərova həsr olunur*

*(Əvvəli ötən sayımızda)*

Qəhrəmanımız 2020-ci ildə 27 yaşını tamam etmişdi. Yaşı getdikcə artırdı. Bu da ailəsinin könlündə Səidin ailə qurması ilə bağlı arzuları, ümidləri daha da artırırdı. Arzuları ailənin sevimlisi Səidin toyunu etmək, onu bəy kimi görmək idi. Bu arzunun gerçəkləşməsindən ötrü Səid üçün uyğun zaman gəlmişdi, hətta bu zaman keçirdi belə. Hələlikdə isə Səid tam başqa fikirdə, arzuda idi. Səid başqa bir şey üçün uyğun zamanın keçdiyini düşünür, bir an da qərar tuta bilmirdi. Axı Səidi bu qədər düşündürən nə idi? Həyatda ən çox arzuladığı əsgər formasını az qala 9 il idi ki, şərəflə, ləyaqətlə daşıyırdı. Səidi düşündürən Qarabağ ağrısı idi. Onun üçün əlbəttə, hərbçi olmaq adi bir arzu ilə yekunlaşmırdı. O, hərbçi olmağı ən çox da Qarabağı azad etmək, şəhidlərimizin intiqamını mənfur düşmənlərdən almaq üçün arzulamışdı. Haradasa 10 ilə yaxın bir müddətdə hərbi xidmətdə olsa da hələ Qarabağı azad etməyin vaxtının yetişməməsinə təəssüflənirdi. Səidi fikir dəryasına qərq edən də bu arzusunun gecikməsi idi.

Nəhayət, 27 sentyabr 2020-ci ildə müzəffər Ali Baş Komandanımız qəsdimizə duran düşmənə qarşı əks-hücum əməliyyatını başladanda artıq ərlik, igidlik, qəhrəmanlıq meydanı bütünlüklə Azərbaycan Silahlı Qüvvələrinin, Səidin və Səidlərimizin idi.

İndi isə gəlin müharibədə Səidin göstərdiyi qəhrəmanlıqları və fədakarlıqları haqqında onun döyüş yoldaşlarından dinləyək. Hərbçimiz, Səidin döyüş yoldaşı Azər Kamal oğlu Muradov deyir: "Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin Şahinlərində Səidlə birlikdə xidmət etmişəm. Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsinə N saylı taborunun 1-ci qrupunda Səid Cəfərovla təlim və döyüş məşğələlərində birlikdə hazırlaşırdıq.

Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə Ömər aşırımının arxa hissəsində yerləşən Susuzluq deyilən yer istiqamətində gedən döyüş zamanı gözləmədiyimiz halda düşmənin "məxfi" adlanan postu tərəfindən pusquya düşdük, taborun pusqu vəziyyətindən, tələdən çıxması üçün şəxsi heyətin hər bir üzvü böyük əzmlə vuruşurdu. Tabor pusquya düşən zaman pusqudan çıxmağımız üçün Səidin fəaliyyətini kinolarda gördüyüm "Rembo"nun qəhrəmanlığından yüksək qiymətləndirirdik. Məhz bu qəhrəmanlığından sonra döyüşlərdə biz Səidə "Rembo" ləqəbi verərək onu bu adla çağırırdıq. Həqiqətən də taborumuz düşmən tərəfindən qurulmuş tələdən Səidin qəhrəmanlığı sayəsində xilas oldu. Səid döyüş vaxtı daşıdığı iriçaplı silah-sursatın ağırlığına baxmayaraq o, çəkisi daha yüngül olan kiçik çaplı silahları daşıyan döyüşçülərdən geri qalmır, əksinə onlardan öndə gedirdi. Həmin düşmən pusqusu zamanı 4-5 nəfər döyüşçümüz yaralandı, 2 nəfərimiz isə şəhid oldu. Şəhid Orxan Daşdəmirov təxliyyə qrupunu, şəxsi heyəti döyüş meydanından çıxarmışdı, Səid Cəfərovun isə Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Rəşad Abdullayevin cənazəsinin relyefinə görə ən çətin ərazidən təxliyyə edilməsi zamanı rolu çox böyük olmuşdu. Yuxarı rəhbərliyin göstərişinə əsasən Kəlbəcər istiqamətində geri çəkilməklə Füzuli istiqamətində döyüşlərə başladıq. Füzuli istiqamətindən Hadrut qəsəbəsinə daxil olmaq tapşırığı verildi, şəxsi heyət iki hissəyə bölündü. Şəxsi heyətin bir hissəsi Hadrutun mərkəzinə göndərilmiş, yerdə qalan şəxsi heyət isə Hadruta kömək məqsədi ilə gələn düşmənin qarşısını almaq üçün yüksəklikdə mövqe tutmuşdu. Mövqedə olduğumuz zaman düşmənə məxsus "Kamaz" markalı hərbi avtomaşını və onun içərisində olan şəxsi heyəti Səid istifadə etdiyi "PK" pulemyotundan atəş açaraq tamamilə məhv etdi. Təxminən yarım saat sonra isə düşmənin Hadrutun müdafiəsinə gələn 300-ə yaxın canlı qüvvəsi vaxt keçdikcə bizə yaxınlaşırdı, düşmən qüvvəsinin bizə çatmasına az məsafə qalmış Səid istifadə etdiyi iriçaplı silahdan dayanmadan atəş açmaqla düşmənin canlı qüvvəsini məhv edirdi. Səidin dayanmadan açdığı atəş al-





tında onları saxlaması və onların xeyli sayda şəxsi heyətini məhv etməsini görən düşmən geri çəkilərək qaçmağa başlayırdı. Həmin döyüşdə Səid düşmənin çox sayda canlı qüvvəsini məhv etmiş və yaralamışdı. Həmin qeyri-bərabər döyüşdə Səidin qəhrəmanlığı sayəsində döyüş meydanından qaçan düşmən orada özlərinə məxsus 3 ədəd hərbi maşını və iriçaplı topları qoyub qaçmışdılar.

Tuğ qəsəbəsinin azad olunması, həmçinin orada yerləşən adsız yüksəkliklərin azadlığı uğrunda gedən döyüşlərdə də Səid xüsusi şücaət göstərmişdi.

Sığnaq kəndi ərazisində erməni xüsusi təyinatlıları tərəfindən pusquya düşmüşdük. Həmin pusqudan çıxmaqda Səidin böyük əməyi olmuşdu. Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə Səid öndə gedən qrupda birinci idi. O, həmin döyüş zamanı yaralanmasına baxmayaraq döyüşə davam etmişdi. Öz həyatını heçə sayaraq düşmən üzərinə hücum etmiş, qəhrəmancasına şəhid olmuşdu."

Səidin döyüş yoldaşı Teyyub Novruz oğlu Eyvazovun dediklərindən: "Mən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən hərbi hissəsinin xüsusi təyinatlı bölməsində xidmət etdiyim dövrdə biz xüsusi təyinatlı qrupa ezam olunduqdan sonra orada Səid Zəfər oğlu Cəfərov ilə qrup yoldaşı olmuşuq. Təlim toplantısı və dərslər zamanı Səidin necə həvəslə, inamla çalışdığını gördüm. İkinci Qarabağ müharibəsinə mənim olduğum xüsusi təyinatlı bölmə Kəlbəcər istiqamətində gedən döyüşlərdən qatılmışdır. Həmin döyüşlər zamanı Səid düşmənin atəş mövqelərinin susdurulmasında və canlı qüvvəsinin məhv edilməsində öndə gedən hərbi qulluqçulardan biri idi.

Sentyabr ayının 29-u istiqamətimizi dəyişərək Füzuli şəhəri, Cəbrayıl rayonu uğrunda gedən döyüşlərə qatıldıq, həmin döyüşlərdə Səidin düşmənin 60-a yaxın canlı qüvvəsini məhv etdiyinin canlı şahidi oldum. Bizim istiqamətimiz Hadrut qəsəbəsinə doğru idi, qəsəbənin azad olunması zamanı bizim qrupumuz 7 nəfərdən ibarət idi. Səid Hadrut döyüşlərində iştirak etdiyimiz zaman düşmənin təminat yolunu bağlayaraq onların yolunu kəsmişdi. Həmin vaxt düşmən bunu görərək hücum etmiş, Səid öz həyatını heçə sayaraq düşmən gələn istiqamətdə mövqelənib iriçaplı silahı ilə düşmənin "Kamaz" markalı avtomobilini və içindəki şəxsi heyəti məhv etmişdir. Həmçinin həmin ərazidə yerləşən Edişə kəndinin yaxınlığında yerləşən adsız zirvələrdə mövqeləndiyimiz zaman düşmənin bir tabora yaxın hərbi qulluqçusunun bizim olduğumuz istiqamətdə hücuma keçdiyini gördük. Bu vaxt Səid bizim yanımızda olmasaydı 7 nəfərlə bu hücumun qarşısını almaq olmazdı. Səidin oradakı döyüşü bir qəhrəmanlıq nümunəsi idi.

Əlavə olaraq qeyd etmək istəyirəm ki, Tuğ qəsəbəsinin düşməndən azad olunmasında Səidin rolu həddən çox böyük idi. Adları çəkilməyən yaşayış məntəqələrinin azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbi qulluqçularımızın döyüş mövqeyindən təxliyyə edilməsində də Səid Cəfərovun böyük rolu olmuşdu".

Əgər zaman maşını icad olunsa idi və biz o maşınla şanlı müharibəmizin 44 gününün 44-nü də film kimi izləsəydik, o filmin hər hissəsində qəhrəmanımız Səid və onun igidlikləri göz önündə olardı. Çünki Səid 44 günün 44-də də müharibədə iştirak etdi, xüsusi qəhrəmanlıqlar və rəşadət göstərdi. Cəbrayılın, Kəlbəcərin, Xocavəndin və nəhayət, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə sinəsini yağı düşmənin güllələrinə sipər etdi. Arzuladığı kimi Allah Səidə bütün bir müharibəni görmədən şəhid olmağı qismət etmədi. Məqaləmin əvvəlində vurğuladığım kimi Səid 9 noyabr 2020-ci ildə, yəni müharibənin son günündə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhidlik zirvəsinə yüksəldi. Şəhidimiz 12 noyabr 2020-ci ildə doğulduğu Neftçala rayonunun Dördlər kəndində torpağa tapşırıldı. Ailə qurub övlad sahibi ola bilməyən, bu dünyadan subay gedən qəhrəman ardında bizə azad Qarabağı miras buraxdı...

İgid əsgərinin qəhrəmanlığı müzəffər Ali Baş Komandanımızın diqqətindən yayınmadı. Onun sərəncamlarına əsasən Səid Cəfərov şəhadətindən sonra 6 medalla - "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

Səid Cəfərov 27 il bu vətənin göy səması altında, barlı-bərəkətli torpaqları üstündə yaşadı. Bunun üçün özünü hər zaman borclu hiss etdi, vətənini hər şeydən çox sevdi. Hər zaman onun üçün yaşadı. Sonda isə onun üçün şəhadətə ucaldı. Hazırda isə onun ruhu vətən səmasında cövlan edir, özü və özü kimi qəhrəman vətən oğullarının azad etdiyi Qarabağa baxıb şad olur. Vətənimiz öz fədaisini unutmayacaq, var olduğu müddətcə belə qəhrəmanlarının ölməzliyini qoruyub saxlayacaq və bir də başı üstündə qara buludlar olmasın deyə yeni-yeni Səid Cəfərovlar yetişdirəcək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin! Amin!

ZƏFƏRİN OĞLU

Şuşa şəhərinin fatehlərindən olan, Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin hərbçisi, şəhid, qəhrəman baş çavuş Səid Zəfər oğlu Cəfərovun xatirəsinə dərin hörmət və ehtiramla...

Bu dünyaya qələbə üçün gəldi,
Döyüşlərdə düşmən bağrını dəldi,
Şəhidliyin zirvəsinə yüksəldi,
Böyük qəhrəmandır Zəfərin oğlu.

Daim ürəklərdə yaşayacaqdır,
Vətəni köksündə daşıyacaqdır,
Zirvələr ruhunu oxşayacaqdır,
Damarlarda qandır Zəfərin oğlu.

Şuşa dağlarından duman çəkildi,
Torpağına Xarı bülbül əkildi,
Düşmənin bağrına dağlar çəkildi,
Zəfəri dadandır Zəfərin oğlu.

Vətən üçün çox əzaba qatlaşdı,
Məqsədi uğrunda zirvələr aşdı,
Damarında qanı qaynadı, daşdı,
İgid, pəhləvandır Zəfərin oğlu.

***19.03.2025***



***SEVİNDİK NƏSİBOĞLU***
***şair-publisist, AJB üzvü***